Azərbaycan.- 2021.- 13 aprel. S. 12.

# Ağstafada Vətən müharibəsi şəhidinin xatirəsinə bulaq inşa edilmişdir

**Vətən müharibəsinə könüllü qatılan və döyüşlərin birində şəhidlik zirvəsinə ucalan Elnur Həsənovun adını əbədiləşdirmək üçün Ağstafa şəhərində "Şəhid bulağı" inşa edilmişdir.**






Bulaq kompleksinin açılışında rayon icra hakimiyyətinin nümayəndələri, şəhidin valideynləri, yaxınları və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər. Mərasimdə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, şəhidin atası Elman Həsənov və başqaları çıxış edərək torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin qəhrəmanlığından, eləcə də ölkəmizdə şəhid ailələrinə və qazilərə, dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan söhbət açmışılar. Qeyd edilmişdir ki, Elnur Həsənov Füzuli, Laçın və Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 8-də Şuşa şəhərinin azadlığı uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Prezidentin sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşa uğrunda" medalları ilə təltif olunan Elnurun xatirəsi ağstafalılar tərəfindən əziz tutulur və bulaq da həmin ehtiramın ifadəsidir. Sonda tədbir iştirakçıları şəhidin xatirə lövhəsinin önünə tər qərənfillər düzmüşlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***